# ŞƏHİDLİK ZİRVƏSİ



**Dilarə Qasımova,**
*Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: dqasimova1808@gmail.com*

***Şəhidlər şərəf, qeyrət, ucalıq zirvəsidir,***
***Şəhidlər azadlığın od-şimşək zərrəsidir.***
***Şəhidlər tarixləşən – istiqlal türbəsidir,***
***Şəhidlər şimşək kimi buludlar saxlamazlar,***
***Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar.***

Ünvanı əbədiyyət sayılan **Şəhidlik Zirvəsi!** Doğrudan da, şəhidlik ən uca zirvədir. Biz kiçik yaşlarımızda ananı həmişə ən uca zirvə sanmışıq. Ancaq oxuyub təhsil aldıqdan sonra başa düşdük ki, anasız yaşamaq olar, Vətənsiz isə yaşamaq olmaz. Torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt olunarkən döyüşə gedən hər bir əsgərimiz öz Ana vətənini müdafiə etmək amalı ilə silaha sarılıb, düşməni məhv etmək üçün ordu sıralarına qoşuldu. Çətinliklərə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı belə göz önünə gətirməyən igid əsgərlərimizin yalnız bir məqsədi vardı – torpaqlarımızın 30 illik həsrətinə son qoymaq. Çünki əsgərlərimiz doğma vətənini özlərinə Ana sanırdılar.



Vətənini canından, anasından üstün tutan mübariz əsgərlərimizdən biri də Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin məzunu **Fəxri Məmmədovdur**. Fəxri Məmmədov 44 günlük qalibiyyətli Vətən müharibəsinin ilk şəhidlərindəndir. Valideynlər övladlarına ad seçərkən sanki onların taleyində o adın nə dərəcədə əhəmiyyətli olacağını düşünürlər. Fəxri doğrudan da, adı kimi fəxr ediləcək bir övlad oldu. O, gənc olmasına baxmayaraq, həmişə qəlbi Vətən eşqilə çırpınıb. Fəxri əslən Laçın rayonunun Şamkənd kəndindəndir. Hələ orta məktəbdə oxuyarkən öz dədə-baba yurdlarına, Laçına – əzəli torpaqlarımıza qayıdacaqları haqqında özündə xəyal qururdu. Ancaq onu qarşıda nələr gözlədiyindən xəbərsiz idi. Fəxri Məmmədov Mərkəzin ən nümunəvi tələbələrindən biri idi. O, seçdiyi peşənin incəliklərini, sirlərini öyrənməklə yanaşı, Mərkəzin bütün tədbirlərində fəal iştirak edirdi. Fəxri musiqiyə meyilli olduğu üçün gitarada əsasən, Vətən haqqında mahnılar ifa etməyi sevirdi.

Biz müəllim kollektivi, başda Mərkəzin direktoru Mahir müəllim olmaqla, Fəxrinin şəhid olmaq xəbərini eşidərkən ailəsinin dərdinə şərik olduq. Bizi Fəxrinin atası Habil kişi qarşıladı, həm fəxr hissi, həm də pıçıltı ilə “oğlum Vətən yolunda şəhid olub, Vətən sağ olsun!” dedi. Şəhidin anası Kəmalə xanım da eynilə həmin fikirləri təkrarladı. İki bacısı isə Fəxri haqqında danışan müəllimləri, qohumları, qonşuları dinləyirdilər. Sonda bacılardan biri dilləndi: “Şəhid bacısı olaraq demək istəyirəm ki, düşmən qarşısında inamla dayanıb torpaqlarımızı, vətənimizi qoruyarkən şəhid olan igid qardaşım Fəxri və onun simasında Vətən uğrunda canlarını qurban edən bacı və qardaşlarım, nur içində yatın! Biz Zəfər çaldıq. Allah əsgər və qazilərimizi qorusun. Allah bütün şəhidlərimizə rəhmət etsin!”.

Fəxri 2000-ci il iyunun 27-də Bakı şəhərində anadan olub. İlk təhsilini Bakıdakı şəhid Cəlal Məmmədyarov adına 155 nömrəli tam orta

məktəbdə almışdır. Təhsil aldığı müddətdə nümunəvi şagird kimi yaddaşlarda dərin iz qoymuşdur. 2016-cı ildə IX sinfi bitirdikdən sonra Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinə – (14 nömrəli Bakı Peşə Liseyi) daxil olub. Təhsil ocağında "kompüter ustası" ixtisası üzrə 210-cu qrupda təhsil almaqla yanaşı, eyni vaxtda atıcılıqla da məşğul olur. Təhsilini başa vurduqdan sonra 2019-cu il iyul ayının 23-də Vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanır. Hərbi xidmətini Ağcabədi və Beyləqanda yerləşən "N" saylı hərbi hissələrdə keçirmiş, orada atıcılıq peşəsinə tam yiyələnmiş, eyni zamanda snayper və baş atıcı olmuşdur. Xidmət etdiyi müddətdə komandir və əsgər yoldaşlarının hörmətini qazanan Fəxri rəhbərlik tərəfindən dəfələrlə tərifnamələr almışdır. Bu səbəbdən də Fəxriyə vaxtından əvvəl ezamiyyət verilmişdir.

2020-ci il iyulun 27-də Fəxrinin 20 yaşı tamam olub. Ad gününü hərbi xidmətdə əsgər yoldaşları ilə birgə qeyd edərək yoldaşlarına söz verir ki, 21 yaşını Şuşada qeyd edəcək. Fəxrinin hərbi xidmətinin başa çatmasına çox az vaxt qalmışdır. Son vaxtlar anası ilə danışanda: – Anacan, az qalıb, 3 aydan sonra gələcəyəm, səni, atamı və bacılarımı babamın yurduna, Laçına aparacağam, – deyirdi Fəxri. El arasında bir deyim var: "sən saydığını say, gör fələk nə sayır". O, həmin günü böyük səbirsizliklə gözləyirdi... Fəxri Məmmədov 2020-ci il 27 sentyabr tarixində Cəbrayıl rayonunun Nüzgar kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidimiz Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırılır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda əməliyyatlara qatılaraq vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Fəxri Məmmədov ölümündən sonra ***"Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə"*** medalları ilə təltif edilmişdir.

**Şəhidlər ölməz, unudulmaz!**

İllər keçsə də, bizdən sonra gələn nəsillər böyük minnətdarlıq hissi ilə onları yad edəcəklər. Şəhidlərin davamçıları varsa, onlar hər zaman anılırsa, deməli, onlar ölməyib, yaşayırlar. Hər birimizin borcudur ki, şəhidlikləri ilə bizə Zəfər sevincini yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.